# Şuşa Mərkəzləşmiş Kitabxana Sistemi fəaliyyətini genişləndirir



**Cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi funksiyasını həyata keçirən bir təsisat kimi kitabxanalar vətəndaş cəmiyyətinin formalaşmasında zəruri vasitə rolunu oynayır. Digər tərəfdən, mədəniyyət ocağı olan kitabxanalar müqəddəs bir yer, mənəviyyat, bilik və zəka mənbəyi hesab edilməklə yanaşı, mövcud sənədlərin saxlanc yeri və müasir texnologiyalar sayəsində informasiya dünyasına açılan qapı rolunu oynayır.**

Şuşa rayon MKS-də 1 Mərkəzi, 12 kitabxana filialı fəaliyyət göstərir. MKS-də işlər "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamı, "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında 20 aprel 2007-ci il tarixli Sərəncamı, "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında", "Kitabxana işi haqqında qanunlar", Mədəniyyət və Turizm Nazirliyinin əsasnaməsi, əmr və tövsiyələri, yerli icra hakimiyyəti tərəfindən verilən tapşırıqlar əsasında qurulur.

Şuşa Rayon Mərkəzləşmiş Kitabxana Sisteminin direktoru Gülarə Abbasova ilə söhbət edərkən o dedi ki, 2015-ci ildə MKS-də oxucuların sayı 3871, kitab verilişi 49212 olmuşdur. MKS-in fonduna 1856 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Hazırda MKS-in fondunda 34912 nüsxə ədəbiyyat vardır. Mərkəzi kitabxananın fondundan oxucular tərəfindən istifadə olunaraq yararsız hala salınmış, məzmunca əhəmiyyətini itirmiş ədəbiyyatlar silinmişdir.

Mərkəzi kitabxana Wİ-Fİ sisteminə qoşulmuşdur. Filial kitabxanalar kompüter dəsti, printer, inventar və avadanlıqlarla təchiz edilmişdir. Yaxın vaxtlarda qalan filiallara da telefon xətti çəkiləcək və Wİ-Fİ sisteminə qoşulacaqdır.

İl ərzində Şuşa rayon MKS-ə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 161 nüsxə ədəbiyyat hədiyyə verilmişdir.

MKS il ərzində oxucuları dövri mətbuatla da təmin etmişdir. Kitabxana "Respublika", "Azərbaycan", "Xalq qəzeti", "Mədəniyyət", "Şuşa" qəzetləri, "Mədəni həyat", "Mədəniyyət" jurnalının abunəçisi olmuşdur.

Gülarə Abbasova söhbət zamanı onu da qeyd etdi ki, Şuşa rayon MKS-də il ərzində kütləvi tədbirlər, tarixi və əlamətdar günlər, bayramlar, şair və yazıçılarımızın yubileyləri münasibətilə müxtəlif mövzularla mühazirələr, məruzələr, ədəbi-bədii gecələr, görüşlər keçirilmişdir. Belə ki, 20 Yanvar tariximizin qanlı və şanlı səhifəsi - 25 illiyi münasibəti ilə Mərkəzi kitabxanada ədəbi-bədii gecə keçirilmiş, "Qanlı Yanvar gecəsi", "Şəhidlər unudulmur" başlığı altında sərgilər təşkil edilmiş, məruzə və mühazirələr oxunmuşdur.

MKS-də əsrin Xocalı faciəsindən bəhs edən bir sıra tədbirlər də keçirilmişdir. "Əsrin Xocalı faciəsi-23", "Qan yaddaşımız Xocalı" və s. başlıqlar altında məruzə, mühazirələr oxunmuş və sərgilər təşkil edilmişdir. N.Çavadzenin "Müharibənin üzü" kitabının təqdimatı da keçirilmişdir.

Novruz bayramı münasibəti ilə "Yurdumuza Bahar gəlir" başlıqlı ədəbi-bədii gecə 31 mart - Azərbaycanlıların soyqrım günü ilə əlaqədar olaraq MKS-də məruzə, mühazirələr oxunmuş, sərgilər təşkil edilmişdir.

Şuşa köçkünləri üçün salınmış Yeni Ramana 450 qəsəbəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr edilən VII Kitab Bayramı keçirilmişdir. Kitab bayramında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş nəşrlər və müxtəlif elm sahələrini əhatə edən kitablar nümayiş etdirilmişdir.

Bu il ədəbiyyatşünas və ictimai xadim, SSRİ-nin və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 90 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 14 yanvar 2015-ci il tarixi sərəncamına uyğun olaraq Mərkəzləşdirilmiş Kitabxana Sistemi tərəfindən ədəbi-bədii gecə keçirilmişdir.

MKS-də Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əhali arasında hərbi-vətənpərvərlik işinin gücləndirilməsinə dair 2015-2016-cı illər üzrə Tədbirlər Planına uyğun olaraq "Dəyirmi masa", kitab, foto sərgilər, ədəbi-bədii gecələr və digər tədbirlərin təşkili davam etdirilir. Qeyd etmək lazımdır ki, il ərzində kitabxanaya daxil olan yeni kitabların icmalı hazırlanmış və sərgiləri təşkil edilmişdir.

**Zabit CAVADOV,**
**"Respublika".**